# OKTAY SULTANIN "AMALIM VAR" KİTABI

## *yaxud amalın işığında poetik düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Sözü təbiətində canlı varlıq kimi yaşadanlar, zənnimcə cəmiyyətə və həyata ruhən, qəlbən bağlı insanlardır. Sözün boyunu sevə-sevə, sözün məna dərinliklərinə vara-vara, söz adamı cəmiyyətə işıq ötürür. Özünün həyat sevgisini həmdə cəmiyyətə aşılayır.

Hərdən soruşurlar ki, söz insanlara nə verir, söz insanların maddi tələbatının ödənməsinə yardımçı ola bilirmi? Bizdə belə düşünürük ki, söz insanların mənəvi tələbatının ödənilməsinin, insanın ruhu mənəvi qidasının təminatına xidmət edir. Əgər, söz olmasaydı, insanlar məzlumsuz varlıqlara çevrilərdilər. Bir anlığa düşünək ki, bəşər nəslinin yaratdığı mənəvi sərvətlər yoxdur. Onda insan adlanan varlığın "milyon il eramızdan əvvəlki" varlıqdan nə fərqi olardı? Bir sözlə, Nizamisiz, Fizulisiz, eləcə dünya ədəbiyyatının klassikləri olmasaydı həyat nə qədər, can sıxıcı olardı. Bu səbəblərə görə ayrı-ayrı istedadlı adamların könlündən gələn duyğulanmaları sözə gətirməsini təqdir etməmək olmaz. Bəli, biz söz ilə qəlb, könül yaxınlığı olan hər kəsin yazısına hörmətlə yanaşırıq. İstedadlı adamlar könül duyğulanmalarını sözə gətirməklə cəmiyyətin mənəvi mühitinə ali insanlıq keyfiyyətləri aşılayırlar.

Şair Oktay Sultan Pirşağılının yeni nəşrə hazırlanan "Amalım var" şeirlər kitabını özünü ifadənin imkanları müstəvisində oxuyub fikir bildirməyimiz dəyərli sözə əhəmiyyət verməyimizlə bağlıdır. İnsafən "Amalım var" kitabı müəllifin sözə səmimi yanaşmasından xəbər verir. Bu kitabda onun, sözlə ünsiyyətinin əsaslı olduğunu sözə təsadüfən gəlmədiyini də müşahidə edirik. Özü demişkən sözü amalım var deyə ağrılayan müəllif, oxucusu ilə, elə səmimiyyəti ilə körpü yaradır.

"Amalım var" kitabına müəllifin müxtəlif məzmunlu şeirləri toplanıb. Həm də müəllif kitabçılıq səliqəsinə uyğun olaraq, yaradıcılıq nümunələrini ayrı-ayrı bölmələrdə cəmləşdirib.

Ümumiyyətlə, şairlər və təkcə şairlər yox, incəsənət adamları, yaradıcı insanlar öz əsərlərində daxili-mənəvi mühitlərini əks etdirməyə çalışmaqları ilə sənət uğurlarını təmin etmiş olurlar. Yəni daha çox o sənətkarlar sevilir ki, onlar daxili aləmlərindən gələn səsi-sədanı, yəni düşüncələrindəki obrazları reallaşdıra bilirlər.

Oktay Sultanın da "Amalım var" kitabını vərəqlədikcə onun sətirləri arasından hisslərinin, həyəcanlarının ahəngini duymaq mümkündür. Bu da onu göstərir ki, müəllif mütləq nə isə yazmaq yolu tutmur. Nə vaxt onun daxili aləmindən canlanmağa doğru gələn obraz onu çağırırsa, o da həmin obrazın səsinə səs verir.

Əlbəttə, hər bir sənətkarın öz yolu var. Hansı üslubda, necə yazır, klassik ənənələrə söykənir, yoxsa, müasir yaradıcılıq formalarından istifadə ilə özünü ifadə etməyə çalışır. Bu, hər kəsin öz işidir, başqa sözlə, özünəxas yaradıcılıq yoludur.

Mən Oktay Sultanın şeirlərini oxuduqca onun özünü ifadəyə ciddi-cəhdlə sadiq qalmasını hiss etdim. Düşünürəm ki, onun özünə sədaqəti məhz onun uğurunu təmin edən əsas amil olaraq oxucunun diqqətini cəlb edəcəkdir.

Lirik şeirlər bölməsində toplanan şeirlərin hər birində müəllifin cəmiyyətə ünvanlanan duyğuları onun varlığına sözün nə dərəcədə hakim olduğunu təsdiq. edir. Elə birinci şeirini müəllif "Amalım var" adlandırır. Bu şeirdə sanki, kimliyinə diqqəti yönəldir.

Tükənməzdir sədaqətim,
Torpağıma məhəbbətim.
Halallıqdır hər niyyətim,
Başqa adla deyilmərəm.

Göründüyü kimi, verdiyimz şərhlərə əsasən onun nümunə üçün gətirdiyimiz parçada qəlbinin səsi və bu səsin təbiiliyi duyulur. Müəllif sədaqətinin tükənməzliyini, torpağına məhəbbətinin sonsuzluğunu məmnunluqla, bir az da qabarıq şəkildə dilə gətirir. Bununla da əsas ideala sədaqəti və məhəbbəti qorumağı özünün amalı hesab edir. Düşünən varlıq, yəni insan həyatda yalnız cismən yaşamaq üçün deyil. O, həm də bütün ömrü boyu müəyyən məram xidmət etməlidir.

İnsanlar gəncliklərindən müəyyən yol seçirlər. Zərdüşt də insanlığa işıq gətirməyə çalışırdı. O, çalışırdı ki, insanların qəlbində inam işığı yandırsın. Bu da yalnız seçdiyi amala sədaqəti və bu yolda ardıcıl, inadlı mübarizəsi ilə isətyinə nail ola bilər. Deməli, Oktay Sultan da məhz bu yolu seçib və buna öz sədaqətini andı kimi səslənən şeirləri ilə ifadə edir. İsa peyğəmbər insan toplumlarının arasında gəzərək həqiqətləri dilinə gətirir, insanları həqiqətlərə inanmağa yönəldirdi. Doğrudur, bu yolda onu nə gözlədiyini yaxşı bilirdi. Eləcə də, Məhəmməd peyğəmbər tutduğu yoldan geri dönmədən mübarizə aparırdı. Yaxşı bilirdi ki, bu yolda onu hansı fəlakətlər qarşılayacaq. Amma amalından dönmürdü. Çünki insanlara mənəvi nizam gətirməyə çalışırdı, adamları cahiliyyətdən qurtarmağa çalışırdı. Bunları təsadüfi xatırlatmıram. Şair də amalına sədaqəti ilə dünyadan maddiyyat qazanacağını qətiyyən nəzərə almır. Amma bir insana öz amalı yolunda sədaqətli olmağı, torpağına məhəbbət bəsləməyi təlqin edə bilirsə, özünü xoşbəxt hesab edir.

Şair özünün insani hissləri, duyğuları ilə mühitini bir-birini başa düşməyə, anlamağa çalışır. Bunun üçün dostun həqiqəti naminə ölümə də getsə, peşman deyil. Çünki o, axırıncı tikəsini də mühitindəki ehtiyacı olanlarla bölməyə hazırdır, qətiyyətlidir, qənaətində ardıcıldır:

Dost yolunda ölərəm mən,
Son tikəmi bölərəm mən.
Düşmən gözü dələrəm mən,
Namərd olub söyülmərəm.

Çətindir, çünki sənin yaxşılıq üçün dünyaya, insanlara təlqin etmək istədiklərin kimlərəsə sərf etməyəcək. Dünyadan ancaq maddi qazanc mənbəyi kimi yararlanmaq istəyənlər düşmənə çevriləcək və sənin yaxşılıqlarının qarşısına sədd çəkəcəkdir. Bu, Oktay Sultanı qorxutmur, hətta inamlıdır öz mübarizəsində. Düşmənin də gözünü tökməyə özündə güc hiss edir. Təki insanlar onu düzgün başa düşsünlər. Onun mərdanə əməllərini namərdlik kimi qəbul etməsinlər. Deməli, şairin amalı budur ki, insanlar əsl həqiqəti həqiqət donuna bürünmüş yalanlardan ayıra bilsinlər. Yalnız bu zaman cəmiyyətdə mənəvi nizam bərpa oluna bilər.

O, özünü üçrəngli bayraq hesab edir. Onu da qeyd etmək yerinə düşər ki, müəllifin özünü üçrəngli bayraq hesab etməsi maraqlı poetik bənzənzətmədir. Deməli, o, bayrağı canlı insan kimi təsəvvür edir. Elə buna görə də şəhidlərlə birgə qan verib, can verib bu bayrağı hifz etməyi özünə amal olaraq qəbul edib:

Mən üç rəngli qanlı bayraq,
Şəhidlərə arxa dayaq.
Məndən kəfən olar ancaq,
Libas olub geyilmərəm.

O, amalı uğrunda mübarizədə qətiyyətlidir. Ona görə qətiyyətlidir ki, üçrəngli bayrağın yenilməzliyinə inanır. Hətta amalı uğrunda şəhidliyə gedirsə, bu üçrəngli bayrağa bürünməyi özünün əsl arzusuna, kamına çatması kimi qəbul edir.

Bayraq onun üçün yenilməzdir. Ona görə yenilməzdir ki, üçrəngli bayrağın arxasında amalına sadiq olan insanın obrazı var.

Müəllif bircə misranın daxili mühitinə sanki bir tarix hopturub. İstər-istəməz yaddışımızda üçrəngli bayrağımızın tarixi canlanır. Biz bayrağı təkcə ucalıqlarda yox, bu bayrağı sevənlərin daxili aləmində dalğalanan görürük.

Zənnimizcə, müəllifin bu qənaətləri onun həyat manifestidir. Yəni, kimliyini bəyan etməsidir. Bundan sonrakı həyatını da necə yaşayacağı haqqında dəyişilməz qənaətləridir. Müəllif "Amalım var" şeiri və eyni adlı kitabı ilə, həyatının əsaslarını şərh edir. Əgər, desək ki, cəmiyyətdə baş verən neqativ halların demək olar ki, hamısı ya amalsızlıqdan, ya da əks amala qulluq etməkdən törənir, səhv etmərik.

Belə bir səhv düşüncə var ki, hər bir müəllifin qələmindən çıxan əsər ümumdünya mədəniyyətinin ölməz əsərləri sırasına daxil edilməlidir. Mən qətiyyən bu fikirdə deyiləm. Hər bir müəllifin özünün oxucu arenası var. Bu arenada mənəvi mühitin nizamlanması üçün o mühiti bilən adamın yazdıqları insani dəyərlərin qorunmasına böyük xidmət göstərir. Doğrudur, demək olmaz ki, bir şeirlə, bir kitabla, hətta müəllifin bütün yaradıcılığı ilə insanlar həyatı bütün qavrayacaq və bu qavranılma mühitində əsl həqiqətlər hakim olacaq. Xeyr, belə də deyil, hər halda hər bir müəllifin yaradıcılığı bu və ya digər dərəcədə insanların ruhuna təsir edir, onlara insan olduqlarını diktə edir, insanlığı yaddan çıxarmamağı təlqin edir.

Oktay Sultanın da şeirləri sanki sadə həqiqətlərin keşiyindədir. Axı ən mürəkkəb həqiqətlər belə elə sadə həqiqətlərin davamı kimi hələ nüvə halında olan işığın daha geniş arenaya yayılmasına xidmət edir.

Düşünmək olar ki, Oktay Sultan kimi şairlər bəlkə də elə böyük iddialara düşməməkləri ilə sadə bir həyat yaşamaqları ilə insanlığa daha çox xidmət göstərmiş olurlar. Bu səbəbdən də biz onun yaradıcılığını qeyri-adi ədəbi nümulər kimi yox, həqiqətləri sadə şəkildə cəmiyyətə, insanlığa çatdırdığına görə təqdim edirik. Düşünmək olar ki, Oktay Sultanın uğuru məhz bu mövqedən qiymətləndirilsə daha doğru olar və özünün əsl qiymətini də yalnız bu zaman ala bilər.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

Bütün hallarda həyatını qələmə, sözə həsr edən insanlar cəmiyyətin ən doğma adamlarıdır desəm, yəqin ki, səhv etmərəm.
Müəllif üçün əsas şərtdir ki, insanlar cəmiyyətdə ağa-ağ, qaraya-qara desinlər. Yoxsa əks tədqirdə cəmiyyətdə nizam itər. Həqiqət danılar, bir mənəvi xaos yaranar. Xüsusilə, həyatımızın indiki mərhələsində müəllifin həqiqət uğrunda savaşı xüsusi əhəmiyyət kəsb edir. Görünür elə bu səbəbdən də o, dilimizdə sözümüzü qorumağı təlqin edir. Onun düşüncəsinə görə (həm də doğru düşüncəsinə görə) insanlar həqiqəti qorusalar, elə cəmiyyətin mənəvi nizamını qorumuş olarlar. Müəllif bu fikrin poetik biçimini belə verir:

Bəzən əyri yolu gedən özümüz,
Əməllə düz gəlmir, dildə sözümüz.
Yanıb alışarkən sonda özümüz,
Günahkar alovdu, közdü, deməyək.

Həyatda göz görəsi həqiqətləri tərs üzünə oxuyanları da az görməmişik. Günahkar özü olub başqasında günah axtaranlar azdırmı? Əlbəttə, bu səhvlərin əsas ağrı-acısını başa düşən insanlar çəkir. Nəticədə bütün insanlıq çəkir. Cəmiyyətin özünə zərbə dəyir. Şairin əsas missiyası odur ki, insanların əməli ilə dili arasında səmimiyyət körpüsü yaratsın. Bütün insanlığa və demək insanlara təlqin etsin ki, bu körpüdən, yəni əməl və dil körpüsündən səmimiyyətlə keçsinlər, yoxsa, ayrı-ayrı toplumlar arasından elə güc sahibləri çıxacaq ki, onlar cəmiyyətə, insanlığa meydan oxuyacaqdə onu boya-başa çatdıran məkan kimi təsvir olunur. Məlumdur ki, hər bir insan uşaqlığında yaşadığı mühiti həyatı boyu yaddan çıxarmır:

Uşaqlığım keçib onun qoynunda,
Xəzər sahilində olub kəndimiz.
Mavi sularında çimərək hər yay,
Onun sinəsində boy atmışıq biz.

Birmənalı şəkildə hər dəfə yaddaşında oyanan xatirələrlə sanki Vətən sevgisini yaddaşındakı məkan sevgisini tərənnüm edir. Nasir nəsr əsərləri ilə, şair şeirləri ilə, rəssamlar lövhələri ilə və s.

Bizi qorxutmazdı, dəli dalğalar,
Bəzən saatlarla suda qalardıq.
Tamam yorulanda, çıxıb sahilə,
Qızıl qumlar üstə məskən salardıq.

Çox səmimi şeirdir, gözəl poetik xatirələrdir. Hətta Abşeronu, Xəzəri, qızıl qumlu sahilləri tərənnüm edən şairlərin obrazları da gözlərimizin önündən keçir. Mikayıl Müşfiqi, Almas İldırımı, Məmməd Rəhimi, Süleyman Rüstəmi xatırlayırıq. Eyni zamanda Səttar Bəhlulzadənin Abşeron lövhələri də gözlərimizin önündə ecazkar mənzərələri ilə canlanır. Oktay Sultanın "Amalım var" kitabına cəmlənmiş çox dəyərli şeirləri sırasında "Xəzər xatirələri" əsərinin xüsusi yeri var. Əlbəttə, müəllifin belə dəyərli poetik şeirləri çoxdur, elə "Güzgünün dedikləri" ni də yada salmaq olar. Bu şeirdə də müəllif mövzu kimi həyatının gəncliyini xatırlayır. Təssüratlarını çox incə duyğularla sözə gətirir. Səmimi yanaşma ilə "Güzgü" ilə özü arasında sanki, dialoq qurur. Həyatının mənasını bu dialoqda incələyir.

Oktay Sultan həqiqətən zəngin könül aləmi olan bir şairdir. Onun fəlsəfi ümumiləşdirilmələrlə düşüncələrini rübail janrında ifadə etməsi də diqqəti çəkir. Oktay, satirik şeirlərində də uğurlu nümunələr yaradır. Qələminin kəsəri ilə cəmiyyətin, mənəvi mühitindəki yaramazlıqları, ifşa edir, tənqidində sərtdir. Maraqlı balladaları var.
Oktay Sultanın qəzəlləri də kifayət qədər mükəmməldir, könül oxşayandır. Həm də o, qəzəllərin də ictimai məzmuna xüsusi əhəmiyyət verir. Çox, dəyərli qəzəllərindən birini oxucuların diqqətinə çatdırmaq üçün ön sözə gətirməyi vacib bildik:

Bir birindən seçilmir bu gün əyri, düzümüz,
Düz gəlmir nəticədə, əməl ilə sözümüz.

Dörd əlli yapışmışıq dünyanın ətəyindən,
Tox olsa da qarnımız, fəqət doymur gözümüz.

Müəllifin qəzəl janrında yazdığı şeirində ditaktik motivlər güclüdür. Ancaq nə qədər nəsihətvari bir ruh misralara hakim olsa da, o, yuxarıda qeyd etdiyimiz şeirlərində olduğu kimi, burada da ayrı-ayrı insan tiplərinin yaşam yolunu ümumiləşdirməyə çalışır. Başqa sözlə, o, günahı ayda, ulduzda axtarmır. Yenə insanların özündə axtarır. Hesab edir ki, o vaxt həqiqətlər düz gələ bilər ki, insanlar özlərini dərk etsinlər, özlərinə hesabat verməyi bacarsınlar.
Müəllif bu motivi şeirin davamında da təlqin edir. Və get-gedə daha sərt mövqe tutur. Cəmiyyətdə ayrı-ayrı adamların qara niyyətlərini cəmiyyət üçün bəla hesab edir. Buna görə də özünün ifşaçı mövqeyindən geri çəkilmir.

# OKTAY SULTANIN "AMALIM VAR" KİTABI

## *yaxud amalın işığında poetik düşüncələr*

lar. Onlar öz qənaətlərini həqiqət kimi qələmə verməyə çalışacaqlar. Beləliklə, ayrı-ayrı güc sahibləri, qarşı-qarşıya gələcək. Bununla da sadə insanların qanı axacaq, uşaqlar ata-anasız qalacaq. Dünyanın gəldi-gedərindən xəbəri olmayan körpələr bu qanlı toqquşmaların qurbanına çevriləcəklər. Elə ona görə də müəllif bütün açıqlığı ilə üzünü insana tutur. O insana ki, onu başa düşəcək, dediyinə dəyər verəcək:

Yaxşını yaxşı gör, pisi seç tanı,
Məzəmmət etməyək "fani dünyanı".
Naşükür olmağı, yıxar insanı,
Şükranlıq, səbrimi üzdü deməyək

Göründüyü kimi, bu şeirdə və ümumiyyətlə, Oktay Sultanın digər janrlarda yazdığı poetik əsərlərində nəsihətçilik ruhu güclüdür. Bu da Azərbaycan ədəbiyyatının klassik ənənələrindən qaynaqlanır. Təsadüfi deyil ki, belə şeirlər mənəvi təlabat kimi qavranılır. Müğənilər tərəfindən məclislərdə həvəslə oxunur və dinləyicilərə sonsuz zövq bəxş edir. Müəllifin poetik xatirələri, həzinliyi ilə seçilir və asanlıqla oxucu qəlbinə yol tapır. Axı hər birimizin qəlbində həzin xatirələr var. Hansı səbəbdənsə, həmən xatirələr yaddaşımızda oyanarsa, onda həyatımız ötüb keçən çağlarını kövrək duyğularla ruhən təzədən yaşayırıq.
Oktay Sultanın "Xəzər xatirələri" şeiri oxucunun ruhuna təsir etmək baxımından çox xarakterikdir. Müəllif yerinə, yurduna, özü demiş; torpağına sədaqətini, məhəbbətini ayrı-ayrı şeirlərində davamlı şəkildə təkildə təkrar edir, sanki bir aşiq olaraq doğma yurda sədaqətini nəğmələrə çevirir, özü də öz nəğməsini ürəklə oxuyur:

Qəlbimdəki, iki böyük əzəmət,
Biri dağdır, biri dəniz, əzəldən.
Vüqarım, qürurum olsa bu dağlar,
Ayrıla bilmərəm, amma, Xəzərdən.

Məlumdur ki, Xəzərə nəğmələr deyən şairlərimiz az deyil. Ədəbiyyat tariximiz üçün xəzər şairlərin həmişə ilham mənbəyi olub. Düşünmək olar ki, Xəzərdən sevgi ilə bəhs edən müəlliflərdən biri də elə Oktay Sultandır. Təsadüfi deyil ki, onun üçün Xəzər təkcə ilham mənbəyi yox, həm

Müəllif sanki, canlı bir varlıqla danışır. Onu yaxşı tanıyan həmin canlı "varlıq", elə Güzgünün özüdür "Güzgünün dedikləri" nə qədər təsirlidir:

Niyə sallamısan qaş-qabağını?
Yoxsa bəyənmirsən özün özünü?
Bəlkə tanış deyil, camalım sənə?
Çıxar eynəyini bir sil gözünü!

Real həyatla nəfəs alan şairlər üçün güzgü elə onların daxili "mən"lərini sözə gətirdikləri şeirləridir. Bu tipli şeirlər etiraf təsiri bağışlayır. Demək, etiraflar insanları həmişə mənəvi saflığa çağırır - deyiriksə, onda elə Oktay Sultanın "Güzgünün dedikləri" adlı şeiri də onun təkcə özünə yox, həyata münasibətinin təzahürüdür. Yəni o, öz həyatını necə yaşayıb, bu həyat ona nə verib, onu daxili aləmindən necə böyüdüb və zaman keçdikcə o, necə dəyişib? - istər daxilən, istərsə də zahirən.
Zənnimcə, müəllifin dedikləri təkcə onun özünə aid deyil, hər kəs onun təqdim etdiyi güzgüdə özünü görmək imkanına malikdir. Əlbəttə, kim özünü görmək, həyatın onu necə dəyişdirdiyini anlamaq istəyirsə:

Yaxşı, bax öz hüsnü-camalına sən,
Qaşalr həmin qaşdır, seyrəlib bir az,
Ağız həmən ağız, burun həminki,
Saçlar da tökülüb başın qalıb daz.

Əlbəttə, xeyli kədərli notlardır. Qayğısız uşaqlıq çağları, qaynar, ətrafa od-alov qığılcımları saçan gənclik çağları hara, indiki zamanın ağır imtahanlarından keçərək yaşlaşmış, bəlkə də qocalmış çağları hara?.. Hər halda, insan necə yaşadığını düşünmək üçün bu parçalardan kifayət qədər faydalana bilər, əlbəttə, ibrət götürmək istəyirsə.
Əziz oxucu, sən özün də yaxşı bax. Bəlkə, elə bu lövhələrdə görünən obraz sənə də tanış gələr:

Üzümün rəngi də soluxub artıq,
Alnında qırışlar, yeddi dənədir.
Bunun da öz sirri, hikməti vardır,
Hər biri, on illik bir nişanədir.

Bu bir həyat kitabıdır. Lirik qəhrəmanın həyatının ağrılı-acılı, ağlı-qaralı, çağları güzgünün oxuduğu səhifələrdə çözülür.

Şeirin ayrı-ayrı misraları gözümüz önündən keçdikcə biz də kimlərisə öz obyektimizdə yaxına çəkir, onları daha aydın görə bilirik. Çünki şeir təqdim etdiyi obrazı kifayət qədər aydın göstərə bilir. Baxmayaraq ki, müəllif qara niyyətli adamları heç ümumilikdə özümüzdən ayırmır. Bu da müəllifin öz oxucusuna həqiqətləri təlqin etmək üslubudur. Bəlkə də, oxucuya təsir etməyin ən düzgün yolu elə özündən başlamaqdır:

Yaman mahir olmuşuq talamağa, çapmağa,
Hara ayaq qoyuruq, qalır bərbad izimiz.

Utanmadan giririk məzlumların haqqına,
Haram-halal bilmirik, sırtılıbdır üzümüz.

Çılpaqlığı ilə danışır, dəqiq, aydın yazır. Tamahkarlığı ifşa edir, öz vəzifəsindən sui-istifadə edənləri ifşa edir. Ən başlıcası, insanlara qəddar münasibəti ifşa edir. Daha şair bundan o tərəfə nə etməlidir ki? Satirik, qırmanc bütün kəskinliyi ilə öz təsirini göstərir. Sanki gözlərimizin qabağında şaqqıldayan qırmancın yerində qalmış qanlı izi müşahidə edirik. Sabirdən gələn kəskinliyin Oktay Sultanda belə davamını görmək, əlbəttə, bizi sevindirir. Yəni ağa ağ, qaraya qara deyə bilən sənətkarı zaman həsişə yetirə bilir. Sadəcə onu görmək, duymaq, müasirlərinin öhdəsinə düşür:

Dəyişibdir ritmini, ahəngini zəmanə,
Onu bu günə salan olub bizim sözümüz.

Oqtay, elə desək də, "Vəfasızdır bu dünya",
Tərəddüd eyləyirik, inanmırıq özümüz.

Çox deyirik ki, dünya vəfasızdır. Oktay Sultan da dolayısı ilə bunu deyir. Amma həm də onu deyir ki, bu "vəfasız olan" dünyada gərək ləyaqətlə yaşayasan.
Oktay Sultan, "Amalım var" kitabına topladığı şeirləri ilə ədəbiyyat aləmində kimliyini göstərmək istəyib. Uğurlu şeirləri ilə şair olduğunu təsdiq edib. Zənnimizcə "Amalım var" kitabı, Pirşağılı təxəllüsü ilə nəşr olunur. Bu da müəllifin doğulub böyüdüyü məkana, söz abidəsi kimi yaddaşlarda yaşayacaq.

***30.06.2025***